# Sahibkarlığın inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biridir

**Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və Azərbaycanın milli maraqlarına, dinamik və keyfiyyətli işinə, xalqın yaşayış səviyyəsinin yaxşılaşmasına xidmət edən strategiya artıq 15 ildir ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Bəli, oktyabr ayında Prezident İlham Əliyevin dövlət başçısı kimi fəaliyyətinin 15 ili tamam olmuşdur. Bu müddətdə dövlət başçısı tərəfindən aparılan düşünülmüş siyasət nəticəsində ölkənin iqtisadi potensialının daha da yüksəlməsinə şərait yaradılıb, dayanıqlı və sabit iqtisadi sistem formalaşıb. Məhz bütün bunların sayəsində iqtisadi sahədə ciddi uğurlar qazanılmışdır.**

Bu dövrdə ümumi daxili məhsulda özəl sektorun payı 80 faizi ötmüş, makroiqtisadi sabitlik möhkəmləndirilmiş, rəqabətqabiliyyətliliyinə görə iqtisadiyyatımız MDB məkanında birinci yerə yüksəlmişdir. 2004-2018-ci illərdə iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun və bölgələrin davamlı yüksəlişi məqsədilə regionların sosial-iqtisadi inkişafına dair 3 Dövlət Proqramı (2004-2008, 2009-2013, 2014-2018-ci illər) icra olunmuşdur. Ötən dövr ərzində qeyri-neft sənayesi inkişaf etdirilmiş, ölkə iqtisadiyyatı üçün böyük əhəmiyyət kəsb edən və müasir texnologiyalara əsaslanan çoxlu sayda müəssisə fəaliyyətə başlamışdır. 2014-cü ilin dekabrında təsdiq edilmiş "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"na uyğun olaraq ölkə ərazisində çoxsaylı sənaye parkı məhəllələri, texnoparklar (Sumqayıt, Balaxanı, Mingəçevir, Qaradağ, Pirallahı, Neftçala, Masallı və sair) yaradılmış, istehsal sahələrinin genişləndirilməsi, qeyri-neft sənayesinin ixrac imkanlarının artırılması və innovativ istehsalın inkişaf etdirilməsi istiqamətində ciddi tədbirlər görülmüşdür. Xüsusi vurğulamaq lazımdır ki, sadalanan bu müəssisələrin təməlqoyma və açılış mərasimlərində möhtərəm Prezidentimiz şəxsən iştirak etmişdir. Eyni zamanda, Bakı Gəmiqayırma zavodu, Gəncə, Naxçıvan və Neftçalada avtomobil zavodları, Sumqayıt, Gədəbəy və Daşkəsəndə qızıl-mis emalı zavodları, Gəncə alüminium yarımfabrikatları, kənd təsərrüfatı texnikası zavodları və digər sənaye müəssisələri son illərdə istifadəyə verilmişdir ki, bunlar da ölkənin iqtisadi potensialının gücləndirilməsində mühüm rol oynayır.

Ulu öndərin hər bir sahədə olduğu kimi, sahibkarlığın və biznes mühitinin inkişafında da başladığı kursu Prezident İlham Əliyev sistemli şəkildə, uğurla davam etdirir. Xatırladım ki, ümummilli lider hələ 2002-ci il aprelin 25-də yerli, mayın 14-də isə xarici iş adamları ilə görüşündə deyib: "Əmin ola bilərsiniz ki, biz Azərbaycan dövləti və şəxsən Azərbaycan Prezidenti ölkəmizdə sahibkarlığın inkişafını özümüzün əsas vəzifələrindən biri hesab edirik. Biz Azərbaycanın sosial-iqtisadi inkişafını bilavasitə sahibkarlıqla, onun inkişafı ilə bağlayırıq və sahibkarlığın inkişaf etdirilməsi üçün bundan sonra lazım olan tədbirlərin həyata keçirilməsi ilə məşğul olacağıq. Sizin özünüzə qanunsuz müdaxilə edənlərin, sizə maneə olanların, qanunsuz olaraq sizdən bəhrələnməyə çalışanların hamısının qarşısını alacağıq". Sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsi və bu fəaliyyətin genişləndirilməsinin təmin edilməsi məqsədilə Heydər Əliyev 2002-ci il 27 avqust tarixli fərmanı ilə "Azərbaycan Respublikasında Sahibkarlığa Kömək Milli Fondu (SKMF) Əsasnamənin" Azərbaycan Respublikası SKMF vəsaitinin istifadəsi qaydalarının təsdiq edilməsi ilə SKMF-nin fəaliyyəti və sahibkarlıq subyektlərinin investisiya layihələrinin güzəştli şərtlərlə maliyyələşdirilməsi mexanizminin yenidən qurulması sahibkarlığın inkişafında əsl dönüş nöqtəsi oldu. Böyük öndər sahibkarlarla görüşlərdə onları narahat edən problemlərlə ətraflı tanış olub öz dəstəyini bildirib.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin apardığı sosial-iqtisadi siyasət nəticəsində ölkəmiz yeni inkişaf mərhələsinə qədəm qoymuş, həmçinin sahibkarlığın inkişafında da müsbət nəticələrə imza atılmışdır. Azərbaycanda özəl sektorun inkişaf göstəricilərinin dinamikası ilk növbədə Prezident İlham Əliyevin həyata keçirdiyi iqtisadi islahatların uğurlu nəticələrinin əyani sübutudur. Respublikamızda sahibkarlıq fəaliyyətinin yaxşılaşdırılması, bizneslə məşğul olma qaydalarının sadələşdirilməsi, sahibkarlara dövlət dəstəyinin gücləndirilməsi qanunvericilik bazasının təkmilləşdirilməsi və digər tədbirlər nəticəsində ümumi daxili məhsulda özəl sektorun payı 70-80 faiz dəyişməkdədir. Statistik rəqəmlərdən də göründüyü kimi, sahibkarlığın dinamik inkişafı prosesi ildən-ilə yenilənir və davamlı xarakter alır.

Son illər vergi sistemində aparılan köklü islahatlar sahibkarlar üçün vergi güzəştlərinin tətbiqinə, mövcud dərəcələrin azaldılmasına müsbət təsir göstərmişdir. Qeyd edim ki, ölkə rəhbəri tərəfindən aparılan sosial-iqtisadi inkişaf strategiyasına uyğun olaraq müstəqil respublikamızda özəl bölmənin inkişaf etdirilməsi və sahibkarlıq fəaliyyətinin genişləndirilməsi davamlı iqtisadi inkişafın təmin edilməsində çox böyük əhəmiyyətə malikdir. Dövlət başçısının imzaladığı fərman və sərəncamlarda, qəbul olunmuş Dövlət proqramlarında müəyyən edilmiş, ölkənin sosial-iqtisadi inkişafının prioritet istiqamətlərinə uyğun olaraq qeyri-neft sektorunun və regionların tarazlı inkişafı, xüsusən sahibkarlığın, o cümlədən kiçik və orta sahibkarlığın dəstəklənməsi, məşğulluğun təmin edilməsi ilə bilavasitə əlaqəli olan sahələrdə dinamik iqtisadi inkişafa daha çox üstünlük verilir.

Dövlətimiz iqtisadi siyasətin həyata keçirilməsində yaxından iştirak etməklə sahibkarlara güzəştli kreditlərlə maliyyə dəstəyinin verilməsi, investisiya layihələrinin maliyyələşdirilməsi sahəsində mütəmadi olaraq paytaxtda və regionlarda sahibkarlığa həsr olunmuş tədbirlərin keçirilməsi, xüsusilə ixracyönümlü və idxal əvəzləyici məhsulların istehsalını və emalını nəzərdə tutan, eləcə də bu sahələrin inkişafını stimullaşdıran infrastruktur layihələrinin maliyyələşdirilməsi Azərbaycan Prezidenti İlham Əliyevin daim diqqət mərkəzindədir. Hazırda da kiçik və orta sahibkarlıq subyektlərinin iqtisadi inkişafda oynadığı rola uyğun olaraq sahibkarlığın inkişafında maraqlı olan dövlət başçısının rəhbərliyi altında kiçik və orta müəssisələrə hərtərəfli yardımlar göstərilir. Təcrübə göstərir ki, sahibkarlıq müəssisələrinə edilən yardımlar arasında dövlətin maliyyə dəstəyi xüsusi yer tutur. Bu mənada, müasir şəraitdə onsuz sahibkarlığın inkişafını təsəvvür etmək mümkün deyil.

Sahibkarlıq subyektlərinin maliyyələşdirilməsi ilk növbədə Prezident İlham Əliyevin iqtisadi siyasətinin, dövlətin bu sahədə xüsusi qayğısı və köməyi sayəsində mümkün olmuşdur. Son illər sahibkarlıq fəaliyyətində vergi yükünün azaldılması, xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin sayının azaldılması, hüquqi şəxslərin qeydəalınma qaydalarının sadələşdirilməsi, sahibkarlıq fəaliyyətinə əsassız müdaxilələrin qarşısının alınması istiqamətində mühüm işlər görülmüşdür. "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafına dair Dövlət Proqramı"nın yerinə yetirilməsi kiçik və orta sahibkarlığa dövlət dəstəyinin artırılması və sahibkarlığın fəaliyyətinin tənzimlənməsi istiqamətində müsbət irəliləyişlərə təkan vermişdir. Dövlət başçısının müvafiq sərəncamı ilə təsdiq edilmiş "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Qanunun da sahibkarlara dövlət dəstəyinin gücləndirilməsi ilə yanaşı, eyni zamanda, bu sahədə yersiz müdaxilələrin aradan qaldırılması və investisiya mühitinin daha da yaxşılaşdırılması sahəsində mühüm bir addım kimi dəyərləndirilməlidir.

Son vaxtlar reallaşdırılan mühüm layihələrin nəticəsində ölkəmizdə makroiqtisadi sabitlik qorunub saxlanmış, iqtisadiyyatın şaxələndirilməsi uğurla təmin olunur, bu sahənin inkişafı üçün daha əlverişli imkanlar yaradılır. Müasir dövrdə sahibkarlığın inkişafı sadəcə biznes mühitini yaxşılaşdırmaq, yeni iş yerlərini açmaq üçün deyildir. Xatırladım ki, dövlətimizin başçısı cənab İlham Əliyev Prezident seçildikdən sonra ölkəmizdə 600 min yeni iş yerinin yaradılacağını vəd vermişdi. O vaxt bu rəqəm yüksək olmaqla, həm də xəyal kimi görünürdü. İllər keçdi, xəyal hesab edilənlər reallığa çevrildi. 15 ildə respublikamızda 1 milyon 900 min yeni iş yeri yaradıldı, yoxsulluq 49 faizdən 5 faizə endirildi. Məhz bütün bunları nəzərə alsaq görərik ki, sahibkarlığın inkişafı, əslində, çox böyük islahatlar deməkdir. Bu islahatlar ölkə başçısının rəhbərliyi altında uğurla həyata keçirilir. Ümumiyyətlə, Kiçik və Orta Sahibkarlığın (KOS) inkişafı Azərbaycanda həyata keçirilən genişmiqyaslı iqtisadi islahatların əsas prioritetlərindəndir. Prezidentin təsdiq etdiyi "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi" KOS-u dövlət tərəfindən təşviqi və dəstəklənməsini xarakterizə edən əsas faktorlardan biridir. Bu istiqamətdə kiçik və orta sahibkarlığın inkişafı agentliyinin yaradılmasını struktur islahatlarının tərkib hissəsi kimi dəyərləndirmək olar.

Ümumiyyətlə, dövlət başçısı tərəfindən verilən bütün sərəncam və fərmanlar, həyata keçirilən tədbirlər, möhtərəm Prezidentimizin iş adamları ilə səmimi görüşləri biz sahibkarlar tərəfindən böyük razılıqla qarşılanır və bu sahəyə marağımızı daha da artırır. Sahibkarlara yaradılan şəraitə və mühitə baxmaqla Prezidentimizin müdrik kəlamı ilə bu mühüm sahəyə daha dəqiq qiymət vermək olar: "Sahibkarlar üçün Azərbaycanda analoqu olmayan şərait yaradılmışdır. Onlara həm dövlət dəstəyi, maliyyə dəstəyi, texniki və intellektual dəstək göstərilir".

2003-cü ildən ötən 15 il ölkəmizin dinamik inkişafı, sürətli modernləşməsi, dünyada söz və nüfuz sahibinə çevrilməsi ilə səciyyəvidir. Prezidentimizin müdrik qərarları, rəhbərliyi ilə həyata keçirilən düşünülmüş islahatlar həyatımıza yeni nəfəs gətirib, Azərbaycanı inkişaf etmiş ölkələrin sırasına çıxarıb. Amalı qurub-yaratmaq, xalqımızı xoş günə, daha firavan həyata qovuşdurmaqdır. Müstəqil respublikamız bu gün iqtisadi inkişaf tempinə görə nəinki regionda, bütün dünyada aparıcı və sərmayə yatıran dövlətlərdən biridir. Ötən 15 il sübut etdi ki, dövlət başçısının iqtisadiyyatın bütün sahələrini inkişaf etdirmək üçün konkret proqramları var. Ölçülü-biçili və hədəfi bəlli olan həmin proqramlar müəyyən olunmuş müddətlərdə reallaşdırılır.

Bəli, bu gün sahibkarlıq fəaliyyətinin, özəl bölmənin inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Bu sahəyə göstərilən dövlət dəstəyini, ölkə rəhbərinin diqqət və qayğısını biz hər zaman görürük. Ona görə də bu diqqət və qayğıya biz sahibkarlar ordusu əməli işimizlə cavab verməyi ümdə vəzifəmiz hesab edirik.

**Azər CABBAROV,**
**sahibkar.**